# Azərbaycan-Türkiyə arasında təhsil sahəsində əməkdaşlıq yüksələn xətlə inkişaf edir

## Təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasında səfərdə olub





Noyabrın 1-də təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına səfər edib.

Səfər çərçivəsində təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özerlə görüşüb. Görüş zamanı iki ölkə arasında ümumi və peşə təhsili sahəsində əməkdaşlığın cari vəziyyəti və əlaqələrin gələcək perspektivləri müzakirə olunub. Tərəflər 19 fevral 2021-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"unun icrasından irəli gələn məsələlər ətrafında fikir mübadiləsi aparıb.

Təhsil Nazirliyinin nümayəndə heyəti Bilkənt Universitetini də ziyarət edib. Universitetin rektoru Abdullah Atalar ilə keçirilən görüş zamanı Bilkənt Universiteti ilə Azərbaycanın ali təhsil müəssisələri arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

### Türkiyə Respublikası Ali Təhsil Şurasının rəhbəri ilə görüş

Noyabrın 1-də Türkiyədə səfərdə olan təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikası Ali Təhsil Şurasının (YÖK) rəhbəri Erol Özvarla görüşüb.

Görüşdə iki ölkənin ali təhsil müəssisələri arasında əlaqələrdən məmnunluq hissi ifadə olunub, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Dövlət Aqrar Universiteti ilə Ege Universiteti arasında ikili diplom proqramının əhəmiyyəti vurğulanıb.




### Ankarada fəaliyyət göstərən Heydər Əliyev adına məktəblə tanışlıq

Noyabrın 2-də səfər çərçivəsində əvvəlcə ulu öndər Heydər Əliyevin Türkiyənin Ankara şəhərində yerləşən abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Daha sonra Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Ankarada fəaliyyət göstərən Heydər Əliyev adına məktəbi ziyarət edib, müəssisədəki tədris prosesi ilə yaxından tanış olub.

Təhsil naziri Emin Əmrullayev səfər zamanı Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları ilə iş üzrə Baş İdarəsinin (YTB) sədri Abdullah Erenlə də görüşüb. Təhsil naziri YTB tərəfindən ayrılan təqaüdlər çərçivəsində Azərbaycan Respublikası vətəndaşlarının Türkiyədə doktorantura səviyyəsində təhsil almasını yüksək qiymətləndirib.

Qeyd edək ki, YTB ilə əldə olunan razılıq əsasında 2021-2022-ci tədris ilində 15 azərbaycanlı doktorantura səviyyəsində Türkiyədə təhsil almaq hüququ qazanıb.



### Rəqəmsal Transformasiya Ofisinin rəhbəri ilə görüş

Noyabrın 2-də təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikası Prezidenti yanında Rəqəmsal Transformasiya Ofisinin rəhbəri Ali Taha Koç ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası Təhsil İnstitutu nümayəndələrinin TEKNOFEST festivalında iştirakı vurğulanıb.

## Təhsil naziri Türk Şurası Təhsil Nazirlərinin 6-cı iclasında və Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 4-cü iclasında iştirak edib



Noyabrın 4-də Türkiyənin İstanbul şəhərində Türk Şurası Təhsil Nazirlərinin 6-cı iclası və Beynəlxalq Türk Akademiyası Elmi Şurasının 4-cü iclası keçirilib.

Türkiyə, Qazaxıstan və Qırğız təhsil nazirləri, Özbəkistan təhsil nazirinin müavini, habelə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Baş katibi, Beynəlxalq Türk Akademiyasının prezidenti, Macarıstanın İstanbuldakı Baş konsulu və digər yüksək səviyyəli rəsmilərin qatıldığı iclaslar zamanı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) çərçivəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub.

Hər iki tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev TDƏŞ çərçivəsində təhsil sahəsində irəli sürülən təşəbbüslər yönündə görülən işlər haqqında məlumat verib. Nazir "XV əsrə qədər Ortaq Türk Tarixi" dərsliyinin 2019-2020-ci tədris ilindən etibarən 151 yerli ümumi təhsil müəssisəsində fakültativ fənn kimi tədris olunduğunu bildirib. Bundan başqa, Təhsil Nazirliyinin ümumi təhsil müəssisələri şagirdlərinin mübadiləsində aktiv iştirak etməsi, 17-24 mart 2018-ci il tarixlərində keçirilmiş ikinci mübadilə proqramına ölkəmizin evsahibliyi etməsi xüsusi vurğulanıb. Nazir həmçinin ali təhsil sahəsində əlaqələrin dərinləşməsi baxımından mühüm rola malik Türk Universitetləri Birliyinin bir müddət öncə keçirilmiş 5-ci konfransında Azərbaycan Dövlət İqtisad Universitetinin Birliyin üzvü seçildiyini qeyd edib.

Emin Əmrullayev ötən il Vətən müharibəsi zamanı ölkəmizlə həmrəylik nümayiş etdirərək Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə TDƏŞ-ə xüsusi təşəkkürünü bildirib. İclas zamanı Ermənistan silahlı qüvvələrinin ötən ildə mülki əhali və infrastruktura qarşı hücumlarının nəticələri haqqında məlumat tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, Beynəlxalq Türk Akademiyasının Elmi Şurasının 4-cü iclasında 2022-ci il üzrə Elmi Şuraya sədrliyin Azərbaycan Respublikası Təhsil Nazirliyindən Türkiyə Respublikası Milli Təhsil Nazirliyinə keçdiyini bildirən lövhə təhsil naziri Emin Əmrullayev tərəfindən Türkiyənin milli təhsil naziri Mahmud Özərə təqdim edilib.